

HEYRƏT ETDİM TƏBİƏTİN ACİZLİYİNƏ

Dəyişirik gəzə-gəzə Azərbaycanı,
Təbiəti yenilməyən gücdür, qüdrətdir.
Bulağını görən kəsin qaynayır qanı,
Qıjıltılı çaylarısa coşan qeyrətdir.

Aşırımlarda sərgi açan min gül, min çiçək
Könüldəki diləklərdir – sayrışır rəng-rəng.
Buludlardan çıxan zirvə vüqara dönür,
Cəsarətə məşəl tutur qartal yuvası.
Yay qarında dəli qəzəb soyuyub sönür,
Dan yerindən şəfəq alır eşqin səması.

Mehribanlıq – dərələrin gülüşündədir,
Düzlük-saflıq – dolaylarda, dağ döşündədir.
Təbiətdən pay götürüb təbiətimiz,
Pak duyğular bəxş eləyib bu torpaq bizə!
Odur salan idraka da naxış-naxış iz,
İşıq səpən qəlbimizə, gözlərimizə.

Yer üzünün belə nadir bir guşəsində
İgidlərin, gözəllərin hesabı yoxdur,
Burda hərə öz işində, öz peşəsində,
Qəm-qüssə az, səadət çox, məhəbbət çoxdur.

Lakin tək-tük insan da var içindən yanar,
İşıq saçmaz ətrafını zülmət alsa da,
Dağda yaşar, özünü də uca dağ sanar
Boyu kömür tayı kimi gödək olsa da.
Tanıyıram birisini, tanıyır çoxu,
Əli qələm tutan gündən, düşüb mərəzə –

Gül-çiçəkli bir məkanda bilməyir yuxu,
Məktub yazıb o, tel vurur gündə mərkəzə.

Məktub yazır sol əliylə, ayaqlarıyla
Gah imzalı (özgə adla!), gah da imzasız.
Qarşılaşır rəqibiylə o bilə-bilə,
Söyüb ara vuranları, edir dil-ağız.

Zəhərini boşaltmasa gedib xəlvəti
Vərdişlidir, bir an aram ola bilməyir,
Qarayaxma nəşəsindən çatan ləzzəti
Təzə beçə balından da ala bilməyir.

Düşünürəm: yaşıl donlu qadir təbiət
Məlhəm qoyub hər yaranı, dərdi itirir,
Addımbaşı göstərir o, möcüzə, hikmət –
Sarp qayalar sinəsində palıd bitirir.

Bəs bu məğrur gözəlliyin, hüsnün əlləri
Niyə qəbə bir xislətə ənçam çəkməyir?
Seyr edirəm bozqırlarda bitən gülləri,
Niyə dağlar hər ürəkdə mərdlik əkməyir?

Bu halətlər müəmmalı göründü mənə –
Heyrət etdim təbiətin acizliyinə...

DİNMƏDİKCƏ

Kobud torba üzərində rəsm edilib: Yesenin,
Damağında qəlyanı...
Sex rəisi! – dedim, – yəqin, ağlın çaşıb ya sənin,
Ya qudurub biləyinə dolamısan dünyanı.

Yoxsa şair şöhrətini çevirməkçin qazanca
Talesiz bir sənətkarı fağır bilib seçmisən,
Pul izinə düşə-düşə öz yolunu azınca
Yeyib arı-namusu da üstündən su içmisən?

Evdar qadın pudra atır, kartof yığır, şor tökür
Lirik şair "Yesenin"li o torbanın içinə –
Söz sərrafı baxışına duman çökür, çən çökür,
Şəxsiyyəti təhqir olur... qadının nə vecinə –
Gəlib gedən şəklə baxır... ona baxır üstəlik,
Nə dərdinə, belə torba dəbdir, yoxsa xəstəlik?

Sex rəisi! Torba üstə alaq çəkdin – dinmədik!
Sahibinə təpik atan ulaq çəkdin – dinmədik,
Şlyapalı bir quldur da, qara saqqal keşiş də,
Lüt kişi də, lüt arvad da, ucuz-müftə öpüş də...

Abrımızdan üzümüzü yana tutduq – dinmədik.
Kinimizi, hirsimizi güclə udduq – dinmədik.
Dinmədikcə iştahını artırırsan sən ancaq,
Hər gün təzə pəstah açır kirli əlin-ayağın.
Gözəlliyi, ləyaqəti qərq eləyib udacaq
Dəhnəsindən kəsilməsə boz-bulanıq bu axın!

GÜLMƏŞƏKƏR

"Sən məni bu qədər mehriban, halim,
Bu qədər səmimi bilmə, əzizim...
Bu qədər sən mənə arxayın olma,
Gözüm başqa gözə bənd ola bilər...
Özünü gözlə məndən,
Gözlə özünü, gözlə..."
Cavan bir müəllifin misralarından

Bu misralar məhəbbətin
Məbədinə tullanan daş,
Oxuyanlar heyrətdədir,
Sevən çaşbaş, yazan çaşbaş.
Baş-ayaqmı doğub səni
Anan, qardaş? –
Gah and içib yalmanırsan,
"Kövrəlirsən" sırtıq-sırtıq:
"Başlamışam çox sevməyə

Məcnundan da, Kərəmdən də
Səni artıq"
Gah da belə nala-mıxa
Vura-vura,
Sadəlövh, pak bir ürəyi
Qıra-qıra,
Söndürməkçin
Qığılcımdan od götürüb
Təzə-təzə şölələnən bir atəşi,
Əyyaşların ədasilə
Danışırsan lovğa-lovğa,
Kişi-kişi,
Birisini sevə-sevə
Başqasının gözlərinə bənd olursan,
Ondan ötüb bir özgənin
İsti, rahat mənzilində bənd alırsan.

Sən qız kimi naz satdıqca
Guya qızlar əldən gedib
Qan-yaş tökər,
Nə zamandan, hardan belə
De, olmusan gülməşəkər?

O ülfətdən, bu ülfətdən
Arsız-arsız söhbət açan,
Məqsədinə yetişməmiş

Öz dalından özü qaçan
Üzdəniraq
Lirikə bax!

Ruzisini itirəndə
Çarpayısı "cırıldayan"
"Aman dilbər, aman qönçəm,
Leylim..." deyib hırıldayan,
Üzdəniraq
Lirikə bax!

Nəşəsini dadmamışdan
Vüsaldan da qoyub bezən,
Sevdiyindən gen dayanıb,
Təşəxxüslə tənha gəzən
Üzdəniraq
Lirikə bax!

Gül yerində tikan bitər,
Ölçü itər, mizan itər,
Min dərd çıxar bundan betər,
Qələm çəkər ürəyə də,
Diləyə də
Dinməyəndə...

Millətə yad, adətə yad,
Əxlaqa yad, sənətə yad,
Qüdsiyyətə, hikmətə yad –
Naxələf söz meydan sular,
Dinməyəndə belə olar...

İBRƏT ÜÇÜN

Süddən yanıq uşaq idi.
Hər nə gördü tamah saldı –
Baba aldı... nənə aldı...
Yenə gözü əldə qaldı
Kökə üçün, konfet üçün.

Ev-eşikdən qaçaq idi...
Ürcah oldu "cayıllara",
İlişdi əyri yollara,
Uydu içkiyə, qumara
Nəşə üçün, ləzzət üçün.

Böyümüşdü, qoçaq idi...
Əli çatdı ətəklərə,

Taleyini qoydu zərə,
Düşdü, çıxdı neçə kərə
Aldığı hər rüşvət üçün.

Gün keçmişdi, saç ağ idi...
Yaşamışdı ömrü asan,
Qaz ovladı, doldu qazan,
Yoxdu belə bir yol azan
Daş-qaş üçün, sərvət üçün.

Qalxdı, yeri "uca" idi...
Ordan söydü, hədələdi,
Küy qoparıb toz elədi
Ad-san üçün, şöhrət üçün.

Tarix də sərraf qocadır...
Tərəzisi-mizanı var,
Hər əməli yazanı var.
Cəhd etsə də yüz xatakar
Pozulmaz o, verən qərar
Nəsillərə ibrət üçün.

OLSA

Nəğməkarın nə günahı, tarçı neyləsin,
Muğam kimi möcüzəyə qulaq kar olsa?
Tanıyarmı qapısını elçi bir kəsin
Yaraşıqlı, gözəl-göyçək qız biar olsa?

Bulud göydə qaynaşanda yaz çağı hərdən,
Köhlən üstə qürrələnmə, yapış yəhərdən.
Yırğalanan ağaclar da düşər bəhərdən
Çiçək vaxtı çovğun qopub qəfil qar olsa.

Papaq altda kişilər var – bir el yiyəsi,
Məqam gəlsə, od püskürər ağır nəfəsi.
Sönüb gedər pəhləvanın gücü-həvəsi
Nərəsinə, cövlanına meydan dar olsa.

Qayalar da tablamayır coşanda dəniz,
"Piratlar"sa yoxa çıxır səssiz-səmirsiz.
Dalğaları tamam şəffaf görəsiyik biz,
Ömür azca vəfa etsə, tale yar olsa.

NEYNİRİK

Açılhaaçılda tumurcuq arzu,
Yetirhayetirdə zəmilər ruzi,
Otdan bəsdi deyin doymamış quzu
Çiçək üstə yağan qarı neynirik?

Səmalar təşnəsi qanad var – uçmaz,
Çevik ayaqlar var – tərpənməz, qaçmaz.
Qapı var, ürək var bir kimsə açmaz,
Soyuqqanlı dostu-yarı neynirik?

Gəzdi küçələrdə pələng noxtalı
Fəndgirlik çoxalıb hiylə artalı.
Heysiz görən zaman qoca qartalı
Üstünə şığıyan sarı neynirik?

Rəis var, müdir var şahdılar – tacsız,
Bir gün ötüşməzlər nəşəsiz, bacsız,
Oğlan var birçəkli, qız da var saçsız,
Deyirlər: "isməti-arı neynirik?"

Bəzən "qalxmağa" da yox özgə çara –
Yerlin yedəkləyib gərək apara...
Lənət xanlıqlardan qalan azara –
Sağalmaz bu dərdi-çoru neynirik?

Əşya hərisləri şərəfi atıb,
Bufetçi tünd çayı konyaka qatıb,
Şəkəri bal deyə əridib satıb,
De belə bazarı, barı neynirik?

Məxfi milyonçu var hər işi sehir:
"Qoysalar təyyarə alaram..." – deyir.
Alimə, şairə rişxənd eləyir –
Qızıldan püflənmiş şarı neynirik?

Elin sərvətini ha gözlə, qoru,
Artır göbələktək mövqeli oğru.
İşləyib ac qalsa bir nəfər doğru –
Dünyanı dolduran varı neynirik?!

İNSAFSIZ MƏHƏBBƏT

Bu gün gecə növbəsində, xəstəxanada
Tibb bacısı, tibb qardaşı əyləşib qoşa.
Elə bil ki, bu binada yoxmuş dərd-qada.
Deyə-gülə danışırlar onlar baş-başa.
Önlərində neçə "xəstə tarixcəsi" var –
Səslər həkimi,
İniltini, sızıltını dinləyir onlar
Musiqi kimi.
Baxışdıqca düşdülər də hey təbdən-təbə,
Səbir qalmadı...
Xəstələrsə təşnə durub iynəyə, həbə,
Aram olmadı.
Palatadan gələn zənglər haray qopardı –
"Eşitmədilər";
Kimini qan, kimisini isti apardı,
"Dözsün!" – dedilər.
Təbabətdən şəfa, nicat diləyən əllər
Uzalı qaldı;
O gənclərsə gah nəşəli, gah da mükəddər
Xəyala daldı:
Bəlkə... əsl məhəbbətdir, gələrək dilə
Doğulur bu gün?!
"Eşqə" bax ki, insaf-mürvət onun əlilə
Boğulur bu gün...

BİR AZ

Bir az qanan,
Bir az nadan.

Bir az yeni, bir az qalıq,
Bir az ətdir, bir az balıq.

Tərəfidir bir az haqqın,
Bir az sadiq, bir az satqın.

Bir az sadə,
Bir az gədə.

Bir az qəliz, bir az fağır,
Salar yersiz çığır-bağır.

Bir az ovçu,
Bir az gopçu.

Söz-söhbəti bir az nağıl,
Bir az güləş, bir az paxıl.

Bir az qızğın, bir az sönük.
Bir az məhrəm, bir az dönük,

Bilməz xeyri, bilməz şəri,
Bir az düzdür, bir az əyri.

Üz vursalar bir az hərgah
Güc də gələr ona tamah,

"Sovqat" alar ayın-oyun:
Bir az yağ-bal, bir az qoyun...

Dəyyuslarla bir az ortaq,
Bir az lovğa, bir az yaltaq.

Baxışları bir az sözlü,
Bir az, bir az... ikiüzlü.

Xasiyyətdən ala-babat –
Bir az kişi, bir az arvad...

Bu nişanda dost itirdim,
Yoxa çıxdı bütün dərdim.

GÖY GÖLÜN XƏTRİNƏ

Yayın qızmarında çıxdıq şəhərdən,
Boz bürüncək kimi bürkünü atdıq.
Keçdik dolaylardan, sıx meşələrdən,
Gözəllik məkanı Göy gölə çatdıq.

Yorğundu maşın da, yorğunduq biz də,
Dincəlmək həvəsi ürəyimizdə
Endik çiçəkləri şehli sahilə,
Sərin, təravətli, mehli sahilə.

Təbiətdə nə kin, nə şər, nə qərəz,
Dolaşır hər yanı təmiz bir nəfəs.
Təmizdir o şamlıq, o yamac, o çöl,
Paklığın özüdür elə bil Göy göl.

Hüsnünə doyunca hələ baxmamış,
Qoynundan gül dərib döşə taxmamış
Birisi təlx etdi ovqatımızı.
O, cibindən razı, özündən razı

Dedi: "Nə baxırsız, göl görməmisiz,
Meşə görməmisiz, çöl görməmisiz?
Buyurun, keyf məndə, damaq da məndə,
Səxavət də məndə, araq də məndə..."

Dərhal hiss elədik sərxoşluğunu,
Yan-yörədən nişan verdilər onu:

İmtahan götürüb rüşvət alanmış,
Nəfsiylə tanış da, yad da talanmış.

Nəfəs çəkmək olmur üfunətindən,
Qeyrətin, vicdanın atıb daşını.
Çıxmış yüz tələdən, minbir ütüdən,
Bişirən olmayıb hələ aşını.

Qudurub yolunu o, aza-aza...
Birdən nə düşünüb, nə daşındısa
Bir qom pul çıxarıb dedi: "Götürün,
Məni evimizə tezcə yetirin..."

(Var öz maşını da özgə adına,
Vaxt olur, yetişmir öz imdadına.)

Hökmlü ədayla o baxdı mənə.
Gözlər qanqırmızı, sinə alatəş...
Dedim:
– Gəl, əyləş!

Ayağım yorulub, qolum yorulub...
Fəqət Göy gölümün əziz xətrinə
Zibil maşınına sürücü olub
Bu pak təbiətdən yüz milyon çərək
Səni uzaqlara tullayam gərək!

"MİLLƏT GERİ QALIB..." DEYİR

Hey əyilir sola, sağa,
Döyür nala, döyür mıxa.
Yuvasından çıxan bağa
Çanağını bəyənməyir –
"Avropayi" mahir yaltaq
Yırğalanır lovğa-lovğa:
"Millət geri qalıb" deyir.

Nə şanı var, nə də şəsti,
Sayılmaqdır dərdi-qəsdi.
Fikrən "azaddı", "sərbəstdi" –
Hər nə oldu, çərənləyir,
"Mən də varam" ədasıyla
Yamsılayır modernisti,
"Millət geri qalıb" deyir.

Mehvərindən qopa-qopa
Yatmır ipə, yatmır sapa.
Bilmir harda ülfət tapa,
Ar çeynəyib, qeyrət yeyir, –
Keşiş kimi saç buraxıb
Əcdadını tutur topa,
"Millət geri qalıb" deyir.
Şit zövqülü qız donutək
Qəlbi rəng-rəng, şərfi rəng-rəng,
Köynəyi də alabəzək,
Şalvarını daram geyir.
Dodaq büzüb ətrafına
Qaş-gözünü süzdürərək
"Millət geri qalıb" deyir.

Qanmır xeyri, qanmır şəri,
Əl tutmağa yox şakəri.
Dost da bilməz bir nəfəri.
Aşağıya meyl etməyir,
Yuxarıda yoxdur yeri.
Mızıldanıb öz-özünə
"Millət geri qalıb" deyir.

Fikri nimdaş, özü cavan,
Nitqi duzsuz, sözü yavan,
Əyyaşlıqla vaxtı sovan...
Quraşdırır şeir-meir.
Oxucunu kəmetina,
Xalqı susmuş görən zaman
"Millət geri qalıb" deyir.

Şəxsiyyətsiz şəxsiyyətdir,
Guya çılğın, guya sərtdir,
Hər əməli qəbahətdir.
Dar məqamda gülümsəyir...
Güzəşt etsən, bağışlasan,
Könlün alsan... kəmfürsətdir –
"Millət geri qalıb" deyir.

Səsləyirsən, gəlmir yola,
Meyə meyl sala-sala
Hər gün bir az gedir dala.
Yenilikdən nitq eləyir
(Eşitməyən, xoş halına!)
Özü avam ola-ola
"Millət geri qalıb" deyir.

BİZ ONLARI GÖRMÜŞÜK

Sadələrin məzmunu var, mətanəti var –
Biz onları daim məğrur bir dağ görmüşük.
Kobudlarsa üzdə coşar, haray qoparar,
Xəlvətdəsə biz onları yaltaq görmüşük.

ALAÇIQ VƏ ÇADIR

Köçü yurda düşəndə gəlib qonşular
Başlayarlar işə, söz ata-ata.
Çubuqlar sancılar, çətən qoşular,
Bir büsat qurular bircə saata.

Durar alaçığın üzü arana,
Yanlığı naxışlı, üstü boz keçə.
Bürünsə büsbütün dağlar borana,
Lüzum da görünməz ocağa-peçə.

Ya da gün şığısa, yansa ot-çiçək,
Dəyişib soyuyar elə bil iqlim.
Tikilib, bəzənib necə də göyçək –
Dirəyi göy budaq, divarı kilim.

Qotazlar, butalar örtüb tavanı,
Döşəmə ağ-sarı çiçəklə dolu.
Burda şirin mürgü tutar insanı
Qavaltək döyəndə dəyəni dolu.

Yatmazsan həvəsdən səhərə kimi
Sazın səsasını burda dinləsən.
Sevmiş "Koroğlu"nu, sevmiş "Dilqəmi" –
Əhsən babaların qəlbinə, əhsən!

Alaçıq! Alnıaçıq ev sahibidir –
Olar ürəyincə hər nə istəsən.
Nəsillər dincəlib, yenə dincəlir –
Əhsən babaların zövqünə, əhsən!..

Kapron çadır da var, girsən istidə
Paltarlı-palazlı çimib çıxarsan.
Buludlu havada, günbatan vədə,
İstəsən içindən buz da yığarsan.

Görməyib dincliyə bir rahat guşə,
Səfalı dağlardan edərsən acıq;
Çadırdan çıxanda taparsan nəşə,
Alsa qucağına səni alaçıq.

Birisi təzədir, birisi qədim,
Qəlbimə yad deyil hər iki duyğu –
Yenini de necə mən tərif edim
Yerində deyilsə isti-soyuğu?

BİR EŞQİN TARİXİ

Sevişdilər

Ürəklərdə yatan sözlər oyandı,
Hərarətlə qucaqlaşdı əlləri.
Cavanlığın ömrü nura boyandı,
Şirinləşdi tələbəlik illəri.
Geyindilər nə bahalı, nə dəbli,
Arzularsa, fikirlərsə təzədi.
Özü, sözü qızın sadə, ədəbli,
Ucuz üzük barmağını bəzədi.

Evləndilər

Qovuşdular, sevinc gəldi bir qucaq
Baxışları öpüşdükcə hər dəfə.
Şölə çəkib yandı təzə, gur ocaq,
Bir səadət uçub qondu bu evə.

Yaşadılar

İllər ötdü, azalmadı məhəbbət,
Fəqət onlar nə Məcnundu, nə Leyli.
Barlı ağac olub artdı bu külfət,
Güzəransa gah şirin, gah gileyli...
Başlandı ilk narazılıq gəlindən:
– Görmüsənmi lap dönmüşəm cücəyə,
Bəs geyinib kecinəcəm nə vaxt mən,
Necə çıxım bu plaşda küçəyə?
Kriplendən palto geyir susatan,
Dəbdən düşmüş şubaya da həsrətəm...
– Düz deyirsən, söz vermişəm gör haçan.
Alacağam, alacağam, çəkmə qəm!..
– Alacaqsan, alacaqsan... bu qış da
Başqaları şuba geysin, biz xəyal?
– Sən deyənə rast gəlmirəm satışda.

– Əldən al...
– Əldən alım?! Bir o qədər pul hanı?
– Mənə gəlcək qurudursan dünyanı...

Deyişdilər...

Ər səbirlə başa salmaq istədi,
İdealdan, halallıqdan danışdı.
Oğruları, əyriləri pislədi.
– Bir az da döz...
Arvad daşdı, nə daşdı.
"Şuba" deyib yerdən göyə daş atdı,
Başını da tezcə tutdu altına.
Hirsi bir an nə soyudu, nə yatdı.
Mindi bu vaxt kişi də cin atına:
– İnsan necə mürəkkəbmiş, ay aman,
Onun kimi sirli deyil asiman...
Sən osanmı?! Bir vaxt sadə, ədəbli,
Don geyərdin nə bahalı, nə dəbli...

Ayrıldılar

Qadın dedi: – o uşaqlar, o da sən...
Dəli-dəli bir şivən də qopardı.
Məhəbbətin gur ocağı bu evdən,
Şuba o gün istiliyi apardı.

HƏKİMLƏ SÖHBƏT

– Hansı dərdin dərmanıdır,
Sabir həkim, İstisu?
– Min bir dərdin...
Lakin hələ bilinməyir çoxusu.

– Misal üçün, sarılığa
Varmı xeyri-zərəri?
– Təmizləyir öd yolunu,
Alır qandan zəhəri.

– Yelə necə?! Ağrısına
Möhlət verərmi bir dəm?
– Burda qoltuq ağacını
Qolazlayan görmüşəm.

Qaynaqlar var isti-soyuq
Bax, bu dərə yuxarı –
Həkimsiz də yox eləyir
Hər dərdi, hər azarı:
Baş ağrısı, diş ağrısı,
Göz ağrısı olanlar
Bu suların ətrafında
Dəyə qurar qış-bahar.

Göy qayadan pıqqıldayan
Parıltıya yaxşı bax,
Bir gözəllik çeşməsidir
Qız-gəlinli o bulaq.

Qıza dönmüş qarı ondan
Üz-gözünə su çilər,
Çox çəkməz ki, qapısından
Qovsan getməz elçilər.

– Sabir həkim, yəni belə
Sehrlidir İstisu?!
– Bəli, mənim etiqadım
Bu qədərdir, doğrusu.

Bir ədib də heyran olub
Gəzib görcək buranı,
Sağ olsun ki, ad qoyubdur:
"Azərbaycan loğmanı".

– Belə çıxır qüsursuzdur,
Nöqsansızdır bu gözəl.
– Xeyir! Onun eybindən də
Demək olar müfəssəl.

Hər gözəlin bir eybi var,
Bu loğmanın – ikisi:
Birincisi – az tapılır –
Yoxdu səxavət hissi.

İkincisi – xasiyyəti...
Fikirdəki naqisliyi,
Duya bilmir İstisu,
Ürəkdəki xəbisliyi
Yuya bilmir İstisu.

ZƏNN ELƏMƏ

Ləpədöyən yerdə yatıb qara qaya,
Sinəsini zərif-zərif çiçək bəzər.
Köklərini qarmaq-qarmaq yaya-yaya
Sərt üzünü yumşaq-yumşaq otlar əzər.

Yosundurmu, mamırdırmı bu kök atan,
Daş üstündə yurd salıbdır nə mərdanə!
Kölgəsində neçə-neçə sürü yatan
Palıddan da güclü gəldi bu ot mənə.
Bir qələm də hələ məndən çox-çox qabaq
Vəsf eləyib bu yaşamaq həvəsini.
Eşitmişəm bundan sonra tez-tez ancaq
Lovğalanan zərif otun cod səsini:

– Təbiətin hər cövrünə dözə-dözə
Yaşamağı məndən artıq sevən hanı?!
Qayaları, qumluqları gəzə-gəzə
Öz nəslimlə tutmalıyam mən cahanı.

Dedim:
– Dayan.
Ey qəhrəman,

Var tərifə, alqışlara ləyaqətin,
Doğrudan da, heç dözülməz, ağır, çətin
Bir məkanda baş saxlayıb ömr edirsən,
İnadına, dözümünə əhsən, əhsən!

Lakin insan qarşısında "mənəm" demə,
Qürrələnib öyünməyin çox nahaqdır –
Daş üstündə yaşasan da, zənn eləmə
Mənim yerim səninkindən yumşaqdır...

XURUŞLU ADAM

Əlində portfeli düşdü vaqondan,
Qara eynək taxıb süzdü şəhəri.
Aldığı-verdiyi nəfəsi yalan –
Havanın bir az da artdı zəhəri.

Gəlib bir dalana girdi xəlvəti,
Zəngi işarəylə çalıb dayandı.
Bir nifrət, bir təşviş sardı külfəti,
Yanaşı otaqda bir çıraq yandı.

O qara portfeli böhtan yüklydü,
Əyləşib, başladı xırıd etməyə.
Hamısı uydurma, hamısı küydü,
Yazırdı, pozurdu dərd yeyə-yeyə.

Xuruşlu qələmlə çirkab tökürdü
Doğrunun üstünə, düzün üstünə.
Məhrəm körpüləri bir-bir sökürdü
Dostun, qohumun da durub qəsdinə.

Sonuncu məktubu hirslə başladı,
Həsəd alovunda hey yana-yana.

Uydurub tapdığı faktı xoşladı;
İlkin "töhfəsiydi" bacıoğluna:

"...Vəravurd etmişəm, bilirəm hər gün
Üçcə minə çatır onun daşbaşı.
Verdiyim "siqnalı" batırmaq üçün
Əlli min apardı dünən qardaşı.

Bu gün də otuz min saldılar yola,
Bir az ayıq olun, yoldaş filankəs.
Nazirin özü də hey bala-bala
Yeməyə başlayıb deməyəsən bəs.

Turşsuda nə qədər qurular məclis,
Yeyirlər, içirlər – dağılır ölkə...
Əlacsız qalmışıq, mat qalmışıq biz,
Siz tədbir görəsiz bu işə bəlkə.

Burada hər şeyin xarabı çıxıb
İstisu azaldıb hərarətini.
Gizli axa-axa dağları yıxıb,
Danıb tərkibini, xasiyyətini...

O nanəcib bulaq bağlansın gərək,
Ağzına yüz pudluq möhür vurulsun.
Bu təbdir vacibdir ibrət dərsitək –
Başqa çeşməyə də qoyun görk olsun...

A yoldaş filankəs, oxuyun bunu,
Adamlar göndərin şəxsən özünüz.
Burada dağ özü pozub qanunu –
Qalmayıb ətrafda bir xırmanlıq düz...

İmza: Öz elinə, yerinə sadiq,
Bir də ki, öz şikəst ərinə sad iq,
Amansız qənimi düşmənin, yadın –
On uşaq anası qəhrəman qadın."

Gah arvad, gah uşaq donuna girdin,
Neçə maska taxdın sırtıq üzünə.
Sümük mərəzidir azarın, dərdin,
Çıxası deyilsən dünya üzünə.

Düşündüm bu qədər ala-bula şər
Haradan cəm olub təbiətinə.
Əslini-kökünü nişan verdilər,
Güntək aydınlaşdı hər mətləb mənə.

AĞACIN DİLİ OLSAYDI...

Üzü təbəssümlü, fikri xatalı
Dəlisov odunçu əli baltalı
Yetirir özünü hər gün meşəyə,
Göz-qulaqdan iraq, xəlvət guşəyə.

Çəkərək şövq ilə o, burda nərə,
İkicə zərbəylə yendirir yerə
Şumal palıdlardan, boylu şamlardan,
Baltası bilmərrə düşmür ovxardan.

Meşəni talayır o, "bala-bala" –
Ondan nişanədir böyük bir tala.

Bu boşluq faş edir gizli əməli,
Yeri görünmədə hər bir ağacın.
Yıxılı tirlərin olsaydı dili
Bitili tirlərə deyərdi: "Qaçın,
Qaçın, o sizləri kəsməyə gəlir,
Əyri ağaclara məhəl də qoymur.
Özünü meşənin ağası bilir,
Doğrayıb tökməkdən doymur ki, doymur".
Yıxılı tirlərin olsaydı dili,
Deyərdi: "tez olun, gəlir o dəli,

Gəlir seçə-seçə –
Fikri xatalı,
Seçir bircə-bircə
Əli baltalı,
Yeriyir, gözaltı baxır yuxarı
Başını dik tutan qovağa sarı
Növbəsi yetişib yazıq vələsin,
Ey bitili tirlər, vaxtdır, tələsin,
Qırın rişənizi siz, qırın, açın,
Yerdən kökünüzü qoparın, qaçın...
Əyrilər qorxmasın... çəkməzlər zərər,
Onlar yaranışdan təzimdədirlər..."

Bosfor sahilinə düşdü güzarım

"YAXŞI YOL!"

Ayağı dənizin suyundan içən,
Başının üstündən buludlar keçən
Mərmər pillələrlə üzü aşağı
Söylə enmisənmi heç axşam çağı?..

Belə geniş səma, göy sahil hanı!
Qəhrəman şəhərin böyük limanı
Gəlib gedənlərlə dolur, boşalır,
Gəmi karvanları bura yan alır.

Sular qaralanda, axşam düşəndə,
Dalğalar gah susub, gah gülüşəndə,
Göy sahil boyunca qarışanda şər
Nurdan boyunbağı taxır gəmilər.

Öpüb yola salır qardaş-qardaşı...
Bir cavan səyyahın çatılır qaşı,
Yanında nə dost var, nə ana-bacı,
Dənizdən yel əsir, daranır saçı.

O indi qürbətə düşəcək yola,
Qəhərdən az qalır gözləri dola.
Liman xidmətçisi "Yaxşı yol" – deyə
Hörmətlə ötürür onu gəmiyə.

"Yaxşı yol!" Hünərin varsa buna döz...
Nə qədər səslənmiş qulaqda bu söz.
"Yaxşı yol" demişik, eşitmişik biz
Səfərə çıxanda, işə gedəndə.

Qürurla, sevinclə vurmuş qəlbimiz
Vətən torpağını biz seyr edəndə.

Ürəyi yuxaldı cavan səyyahın,
"Yaxşı yol" deyənə o, döndü baxdı –
Qayıtdı geriyə, dayandı yaxın,
Qucaqlayıb onun əlini sıxdı.

Adi bir yoldaşın səsi deyildi
Uğurlar diləyən o həzin nida.
Vətənin adından sanki deyirdi
Ürəyi titrədən o səs, o səda.

İlk dəfə gördüyü adamla elə,
Sual etməyin ki, nəydi bu ülfət:
Coşğun bir sel kimi gəlmişdi dilə
Torpağa məhəbbət, elə məhəbbət.

Nə yaman olurmuş Vətən həsrəti,
Yetim uşaq kimi kövrəlir insan.
Dərindən duyarsan bu həqiqəti
Doğma sahilləri tərk edən zaman...

"KEÇMƏ NAMƏRD KÖRPÜSÜNDƏN..."

Aralıq dənizi coşdu, qabardı,
Köpürdü dalğalar, qalxdı dalğalar.
Gəmi ləngər vurdu, suları yardı,
Suların üzünə iz saldı sular.

Külək nalə çəkdi, duman başladı,
Quşlar dəstə-dəstə gəldi haraya.
Fırtına başladı, yaman başladı,
Zirək dənizçilər düşdü əlhaya.